**HÜQUQ MƏSƏLƏLƏRİ VƏ BEYNƏLXALQ ƏLAQƏLƏR KOMİSSİYASI**

**SƏKKİZİNCİ İCLAS**

**“TÜRKPA Üzvü Ölkələri Arasında Turizmin İnkişafı:**

**Covid-19 Pandemiyasının Təsiri və Gələcək Perspektivlər”**

# HESABAT MƏRUZƏSİ

## GİRİŞ

Azərbaycanın Bakı şəhərində keçirilmiş 9-cu Plenar İclasda qəbul olunmuş Katibliyin 2020-ci il üçün Fəaliyyət Planına uyğun olaraq, Hüquq Məsələləri və Beynəlxalq Əlaqələr Komissiyasının səkkizinci iclasının gündəliyinin əsas maddəsi olaraq “TÜRKPA Üzvü Ölkələri Arasında Turizmin İnkişaf etdirilməsi” mövzusunun seçilməsinə qərar verilmişdir.

Ümumdünya Turizm Təşkilatı (ÜTT), turizmi insanların “asudə vaxt keçirmək və digər məqsədlər üçün ardıcıl bir ildən çox və 24 saatdan az olmayaraq adi mühitlərindən kənar yerlərə səyahət etməsi və orada qalması” kimi müəyyənləşdirir. Turizm daxili (səyahətçinin ölkəsi daxilində) və ya beynəlxalq ola bilər və beynəlxalq turizmin bir ölkənin ödəmə balansına həm daxil olan, həm də xaric olan təsirləri vardır.

Qlobal dövrdə turizm fərqli dəyişənlər və parametrlər üzərində əks-təsir göstərir və xarici siyasətin istiqaməti, diplomatiya vasitələrinin istifadəsi və ölkələrin sosial-iqtisadi sistemlərinin müxtəlifliyi turizmlə bağlı qərarlar və təcrübələrlə əlaqələndirilə bilər. Hər bir ölkə turizm potensialının aktivləşdirilməsi və turist

sayının artırılması üçün siyasətlərini və həvəsləndirici amilləri fərdi, təşkilati və milli səviyyədə yönəltməyin zəruriliyi ilə qarşılaşır.

Rabitə sektorundakı sürətli dəyişiklik nəqliyyat vasitələrində sürəti, rahatlığı və tutumu artırmışdır, buna görə də beynəlxalq turizm bu vəziyyətdən müsbət təsirlənmişdir. Beynəlxalq səyahətlər sadə və sərfəli hala gəlmiş, xarici kapital qoyuluşları artmış, turizmə qoyulan investisiyalar turizmə dair məlumatlılığı artırmış və bütün bunlar beynəlxalq turizmin inkişafına müsbət təsir etmişdir.

Dünya Turizm Təşkilatının məlumatlarına görə, 1990-cı ildə dünya səviyyəsində turizm fəaliyyətlərinə 435 milyon turist qatıldığı halda, bu rəqəm 1995-ci ildə 528 milyona, 2000-ci ildə 675 milyona, 2005-ci ildə 798 milyona, 2008-ci ildə 917 milyona, 2010-cu ildə 940 milyona çatmışdır. Dünya Turizm Təşkilatının hesablamalarına görə 2020-ci ildə beynəlxalq turizm fəaliyyətində 1,6 milyard turistin iştirakı gözlənilsə də, Covid-19 pandemiyası turizm sənayesinə böyük zərbə vurdu.

COVID-19-dan əvvəl səyahət və turizm dünya iqtisadiyyatının ən vacib sahələrindən birinə çevrilmiş, qlobal ÜDM-in 10 faizini təşkil etmiş və bu sahə üzrə dünyada 320 milyondan çox iş yeri olmuşdur. 2008-ci ilin ikinci yarısı ilə 2009-cu ilin sonu arasında güclü iqtisadi yavaşlama və 2009-cu ildə H1N1 qrip virusunun baş verməsi nəticəsində turizmdə rəqəmlər azalmış, amma COVID-19 pandemiyası böyüməyə ani bir son qoyana qədər yavaş-yavaş bərpa olmuşdur.

Dünya Turizm Təşkilatı, qlobal beynəlxalq turizm gəlişlərinin 2020-ci ildə 58% azalaraq 78%-ə düşə biləcəyini və beynəlxalq turizm daxilolmalarında 0.9-1.2 trilyon ABŞ dolları itkiyə səbəb olacağını təxmin etmişdir. 2023-cü ilədək dünya miqyasında turizm gəlirlərinin 2019 səviyyəsinə çatması gözlənilmir. 2020-ci ilin ilk yarısında qlobal miqyasda turist gəlişləri yüzdə 65-dən çox azalmış və aprel ayından bəri bir dayanma olmuşdur.

Hesabatda Türkdilli dövlətlər arasında turizm potensialı aşkar ediləcək və turizmin milli iqtisadiyyatlara təsiri təhlil ediləcəkdir. Bundan əlavə, Covid-19 pandemiyası zamanı üzv ölkələrdə turizmdə sahəsindəki problemlərə də toxunulacaqdır.

## ÜZV ÖLKƏLƏR ARASINDA TURİZM POTENSİALI

Eko və təbiət turizmi, qış turizmi və sağlamlıq turizmi də daxil olmaqla, TURKPA-ya üzv ölkələr arasında turizmin hər sahəsi üçün böyük bir potensial mövcuddur. TÜRKPA-ya üzv ölkələr arasında yüksək səviyyədə turizm axını olsa da, istənilən səviyyədə deyil. Türkdilli ölkələr arasında turizmin inkişafı üçün həm ikitərəfli, həm də çox tərəfli səviyyədə müxtəlif səylər göstərilmişdir.

5 iyun 2015-ci il tarixdə Bodrumda keçirilən IV Zirvə toplantısı zamanı qəbul edilən Türk Şurası Dövlət Başçılarının qərarına uyğun olaraq 'Müasir İpək Yolu Birgə Tur Paketi' nin hazırlanması üçün işçi qrupu yaradılmış və Qazaxıstan koordinator kimi müəyyən edilmişdir.

Turizm paketi layihəsi, üzv dövlətlərin turizmdən məsul olan dövlət qurumlarının tabe təşkilatlarının və özəl sektor nümayəndələrinin dəstəyi ilə hazırlanmışdır. Turizm paketi, Böyük İpək Yolu boyunca üzv dövlətlərin şəhərlərində turistik yerləri ziyarət etmək və Türk dünyasının zəngin tarixi və mədəni irsi ilə tanışlığı əhatə edir.

23 Mart 2016-cı il tarixində Çimkentdə (Qazaxıstan) Türk Şurasına üzv ölkələrin Turizm üzrə İşçi Qrupunun 7-ci iclası zamanı üzv ölkələrin turoperatorları 'Müasir İpək Yolu Birgə Tur Paketi' nin həyata keçirilməsinə dair konsorsiumun Protokolunu imzaladılar. Protokola uyğun olaraq, turizm operatorları bu turizm paketini ölkələrinin turizm agentliklərində tətbiq etməli olacaqlar. 8 Avqust 2018-ci il tarixində Astanada, Türk Şurasına üzv dövlətlərin Turizm Nazirlərinin dördüncü iclasında tərəflər turizm paketi web saytının hazırlanması, qiymət siyasəti, turizm operatorlarının marketinq və kommunikasiya strategiyası, dünya bazarında təşviqi və reklam videolarının üzv ölkələr vasitəsilə televiziyada yayımı, Dünya Turizm Təşkilatı ilə qarşılıqlı əlaqə daxil olmaqla 'Müasir İpək Yolu Birgə Tur Paketi'-nin hazırlanmasına və ticari tətbiqinə hazırlığın əsas məsələlərini müzakirə etdilər.

‘Modern İpək Yolu Birgə Tur Paketi’, üzv ölkələrin məşhur turizm yerlərindən ibarət ənənəvi İpək Yolunun misilsiz mədəni, mənəvi, tarixi və qastronomik həyatı ilə turistləri bir araya gətirməyi hədəfləyir. Bu ortaq paket Türkdilli Dövlətlər arasında turist axınını artırmaq və üçüncü tərəflərin turistik ziyarətlərini artırmaq niyyətindədir.

**Azərbaycan**

Azərbaycanın çoxlu sayda qeyri-maddi irs nümunələri, tarixi abidələri və binaları, heyrətləndirici təbiət mənzərələri, həm yerli, eləcə də xarici qonaqları maraqlandıran mükəmməl qonaqpərvərliyi var. Azərbaycanın turizm strategiyası davamlı fəaliyyətlərə və real olaraq əldə edilə bilən hədəflərə yönəldilməklə uzunmüddətli perspektivdə ölkənin turizm potensialını üzə çıxarmağa yönəlmişdir.

Regional turizmin inkişafı bu strategiyanın vacib hissəsidir. O, yerli əhalini turizm və irsi dəyərlər zəncirlərinə inteqrasiya edərək iqtisadiyyatın canlandırılmasını əhatə edir. Ölkə daxilində fəaliyyət göstərən Təyinat İdarəetmə Təşkilatı (TİT) ofisləri və hazırda 7 irs qoruğunu idarə edən Ehtiyat İdarəetmə Mərkəzi (EİM) ilə turizmin inkişafının mərkəzləşdirilmədiyi zamanda güclü bir regional şəbəkə yaradılır.

Bundan əlavə, özəl sektor müəssisələri üçün təlim və potensialın artırılması proqramları regional şəbəkə boyunca həm qurumlar, həm də qurulan 3 turizm sənayesi dərnəyi tərəfindən həyata keçirilir. Azərbaycan Dövlət Turizm Agentliyi (ADTA) turizm sahəsində dövlət siyasət və qaydalarını həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı olaraq 20 aprel 2018-ci il tarixində təsis edilmişdir. Azərbaycan Respublikasının Turizm Şurası ADTA-nın nəzdində fəaliyyət göstərən bir hüquqi şəxsdir və turizm marketinq qurumunu təmsil edir.

Dörd əsas prinsip, yəni ‘davamlılıq’, ‘rəqabətqabiliyyətlilik’, ‘xidmət keyfiyyəti və dəyərlər oriyentasiyası’ və ‘dövlət-özəl sektor tərəfdaşlığı’, Azərbaycanı qlobal miqyasda cəlbedici və uğurlu bir turizm məkanı və brend kimi göstərmək üçün əhəmiyyətlidir. Bunlar sənayenin balanslı inkişafına rəhbərlik etmək məqsədilə müəyyən edilmişdir və Azərbaycanda turizmin inkişafı strategiyasının onurğa sütunu hesab olunur.

Azərbaycan Respublikasının Vətən Müharibəsindəki tarixi qələbəsindən sonra ərazi bütövlüyünün bərpa etməsi turizm sənayesinin işğaldan azad edilmiş ərazilərdə də inkişafına şərait yaratmışdır. Qarabağın əlverişli iqtisadi-coğrafi mövqeyi, çox zəngin ehtiyatlara, nadir təbii-iqlim xüsusiyyətlərə malik olması, münbit torpağı, zəngin flora və faunası ölkə turizm sənayesinin inkişafı üçün yeni imkanlar yaratmışdır. Erməni vandalları tərəfindən dağıdılmış muzey və mədəni-

tarixi abidələri bərpa edilməsi və yenidə qurulması, mehmanxana komplekslərinin inşasının həyata keçirilir.

Bununla yanaşı, işğaldan azad edilmiş ərazilərdə iri infrastruktur və nəqliyyat layihələri surətlə reallaşdırılır. 8 ay ərzində tikilən və 2021-ci ilin sentyabrın 5-də Füzuli Beynəlxalq Hava Limanın istismara verilmiş, eləcə də Zəngilan və Laçın rayonlarında beynəlxalq hava limanlarının tikin-tisi həyata keçirilir. Qarabağda reallaşdırılan nəqliyyat və infrastruktur layihələri gələcək perspektivdə TÜRKPA-nın üzv ölkələri arasında turizmin inkişafına yeni imkanlar yaradır.

Davamlılıq prinsipi turizm sənayesinin milli gəlirə və məşğulluğun artmasına verdiyi töhfəni optimallaşdırmaq məqsədi daşıyır. Rəqabətlilik, kiçik və orta müəssisələri üçün turizmə dəstəyi quruluşunu, regional inkişaf və artan rəqabət qabiliyyətini əhatə edir; müxtəlif növ xidmət təminatçıları və beynəlxalq rəqabət qabiliyyəti üçün özəl sektor turizm sənayesi birliklərinin yaradılmasını asanlaşdırır. Xidmət keyfiyyəti və dəyərlər oriyentasiyası keyfiyyət təminatı üçün tənzimləyici bir çərçivənin təmin edilməsi, turizmlə əlaqəli bütün müəssisələrin lisenziyalaşdırması prosedurlarının təkmilləşdirilməsi və standartlaşdırılması deməkdir. Dövlət-özəl sektor tərəfdaşlığı sənaye, eyni zamanda əlaqəli kiçik və orta müəssisələrin maliyyələşdirməsini, qrant, təlim və məsləhətləşmələr vasitəsilə dəstəyi və dövlət tərəfdaşları ilə birlikdə turizmlə əlaqəli müəssisələrə birbaşa xarici investisiyanın asanlaşdırılmasını təmin edir.

## Qazaxıstan

Turizm Qazaxıstanda 2017-ci ildə milli iqtisadiyyata 1,4% gəlir gətirən əhəmiyyətli bir sahədir. Sənayə ölkə daxilində 463700 nəfər işləyən 118800 qeydiyyatdan keçmiş müəssisədən ibarətdir və 2018-ci ildə ümumi məşğulluğun 5,3% -ni təşkil edir. Xarici türistlərin ölkəyə gəlişi 4,4% gəlir gətirməklə ümumi ixrac gəlirinin 36 %-ni təşkil edir. 2018-ci ildə ölkəyə daxil olanların sayı 2017-ci illə müqayisədə 14,1%, beş il ərzində isə 28,5% artaraq 8,8 milyona çatıb. Ziyarətçilərin əsas mənbəyi ənənəvi olaraq post-sovet ölkələri gələnlərin 91,7% -i və xərclərin 70,6% -ni təşkil edir. Digər ölkələrdən gələn qonaqlar ümumi ziyarətçilərin 8,3% -ni, xərclərin 29,4% -ni təşkil edir.

Qazaxıstan 2019-cu ilin may ayında '2019-2025-ci illər üçün Turizm Sənayesinin İnkişafı Proqramı'nı təsdiq etmişdir. Proqram Qazaxıstanı 2025-ci ilədək dünyada

səyahət üçün ən cəlbedici 50 ölkədən biri kimi təyin etməyi hədəfləyir. Proqram turizm xidmətləri və məhsullarının mövcudluğu və keyfiyyəti, habelə turistlər üçün maraq doğuran yerləri inkişaf etdirərək ölkə əhalisinin həyat səviyyəsinin yaxşılaşdırılmasına yönəlmişdir. Bu proqram, eyni zamanda xarici və daxili turizm axınının artmasına, əlverişli turizm mühiti yaradaraq turizm sənayesinə investisiyaların artırılmasına və Qazaxıstanın həm daxili, həm də beynəlxalq bazarlarda turizm potensialının təbliğinə diqqət yetirir. Qeyd olunan Proqram Qazaxıstanın milli turizm təşkilatı olan Qazaxıstan Turizm Səhmdar Cəmiyyəti tərəfindən marketinq və tanıtım fəaliyyətlərinin idarə edilməsi və turizmə investisiyanın cəlb edilməsi məqsədilə istifadə edilmişdir.

2019-2025-ci illər Proqramında göstərilən bu hədəflərə çatmaq üçün institusional çərçivə gücləndirilmiş, Qazaxıstan Turizm Səhmdar Cəmiyyəti ilə birlikdə fəaliyyət göstərən milli və yerli icra qurumları yaradılmış və turizmin müxtəlif sahələri ilə məşğul olmaq üçün Qazaxıstandakı 30 fərqli sektoru birləşdirəcəyi təxmin edilən əlavə koordinasiya tədbirləri hazırlanmışdır. İnvestorları turizm sənayesinə cəlb etmək üçün qrantların verilməsi və korporativ mənfəət, torpaq və əmlak vergisindən azadolmanı təmin etməklə onlar üçün güzəştli bir rejim formalaşdırılmışdır.

27-28 avqust 2019-cu il tarixlərində Aktau şəhərində Qazaxıstan Respublikası Mədəniyyət və İdman Nazirliyi, Mangistau vilayətinin Akimatı ilə birlikdə Beynəlxalq Turizm Forumu və "Xəzər dənizində turizm" mövzusunda Xəzəryanı dövlətlərin (Qazaxıstan, Azərbaycan, Türkmənistan, Rusiya, İran) ilk Beştərəfli Müşavirələrinə ev sahibliyi etmişdir. Müşavirələrdən sonra tərəflər Xəzərdə turizmin daha da inkişaf etdirilməsi, yeni müştərək turların yaradılması, kruiz turizminin inkişafı, qarşılıqlı səfərləri sadələşdirmək üçün viza və miqrasiya rejimlərinin liberallaşdırılması, Xəzər regionunda turizmin eyni vaxtda inkişafı və Xəzərin himayəsi altında vahid turizm markasının yaradılması üçün ümumi konsepsiyanın inkişafı, habelə turizm obyektləri və xidmətləri üçün vahid sertifikatlaşdırma metodologiyasının hazırlanması kimi bir sıra ortaq qərarlar qəbul etmişdir.

17 aprel 2019-cu il tarixində Azərbaycan və Türkiyə nümayəndələrinin qatıldıqları 19-cu Turizm və Səyahət - KITF 2019 sərgisinə  Almatı şəhəri ev sahibliyi etmişdir. 29-30 iyun 2019-cu il tarixlərində Azərbaycan təmsilçilərinin iştirak

etdiyi beynəlxalq “Kóshpendiler Álemi” və “Böyük Çöl Ölkəsi” sərgiləri keçirilmişdir. 18-21 sentyabr 2019-cu il tarixlərində Nur-Sultan şəhərində PATA Travel beynəlxalq turizm sərgisi ilə yanaşı gənclər simpoziumu, turizmdə texnologiya və marketinq forumları da təşkil edilmişdir.

Qazaxıstan Respublikası Turizm Sənayesinin İnkişafına dair Dövlət Proqramının əsas bölmələrindən biri Qazaxıstanın dünyada səyahət və turizminin rəqabət qabiliyyətini təyin edən viza və miqrasiya rejimlərinin liberallaşdırılmasıdır. Belə ki, vətəndaşları üçün Qazaxıstana vizasız giriş hüququ əldə edən dövlətlərin (73 ölkə) siyahısı genişləndirilmişdir. Bu günə qədər Qazaxıstan 20 ölkə ilə ümumvətəndaş pasport sahiblərinin vizadan azad edilməsinə dair müqavilələr imzalanmışdır.

Bununla yanaşı, Qazaxıstan hökuməti beynəlxalq turistləri cəlb etmək üçün analoqu olmayan addımlar atmışdır. Özbəkistan, Rusiya Federasiyası, Türkiyə, Azərbaycan, İranın məşhur informasiya saytlarında məqalələr dərc edərək Qazaxıstan Respublikasının turizm potensialının təbliğinə xüsusi diqqət yetirilmişdir.

Görüş zamanı Qazaxıstan Respublikası Mədəniyyət və İdman Nazirliyinin, "Qazaxturizm" SC və Türk Şurasının Katibliyi nümayəndələrinin 3 Mart 2020-ci il tarixində Top - 10 investisiya layihəsi təqdim edilmiş, habelə vahid viza sisteminin - "İpək Yolu vizası"nın tətbiqi üzrə Qazaxıstan tərəfinin təşəbbüsü səsləndirilmişdir. Tərəflər Turizm universitetləri arasında əməkdaşlığın qurulması, iştirakçı ölkələrin universitetlərində "Turizm kompetensiyaları Mərkəzi" nin yaradılması və "Turizm paytaxtları Təşəbbüsü" layihəsinin həyata keçirilməsi, Türkmənistanın Turizm potensialı, Şımkent, Almatı və Aktau haqqında reklam çarxının yaradılması barədə razılığa gəlimişdir.

## Qırğızıstan

Qırğızıstan Respublikası turizm sənayesini ölkənin iqtisadi inkişafını stimullaşdıra biləcək prioritet sahə kimi nəzərdən keçirir. 1995-ci ildən Qırğızıstan Respublikasında turizm sektoruna aid bir çox normativ-hüquqi aktlar, normativ-hüquqi siyasət, proqram və fəaliyyət planları qəbul edilmiş və onlar müxtəlif müvəffəqiyyət dərəcələri ilə həyata keçirilmişdir.

Qırğızıstanda turizm şirkətləri tərəfindən hazırlanan müxtəlif turizm xidmətləri və istiqamətlər mövcuddur. Mövcud turizm dəyərlərinin zənciri əsas turizm məhsulunun növündən asılı olaraq üç geniş kateqoriya üzrə qruplaşdırılıb. Bu dəyər zəncirləri aşağıdakılardır: 1) Issık-Kul gölündə çimərlik turizmi; 2) ekoturizm də daxil olmaqla, mədəni və yumşaq macəra turizmi; və 3) ekstremal idman növləri və sərt macəra turizmi. Bu kateqoriyalar turizm sektorunun gəlirlərinin əsas hissəsini təşkil edir və Qırğızıstanda turizm fəaliyyətinin geniş spektrini əks etdirir.

Qırğızıstan Respublikasında turizm sənayesi ÜDM-də təxminən 5,2% təşkil edir və iş yerləri və iqtisadi inkişaf üçün əhəmiyyətli bir böyümə sənayesini təmsil edir. Qırğızıstan İssık-Kul – dünyada ikinci ən böyük dağ gölü, məşhur Tyan-Şan dağ silsiləsi və tarixi "İpək yolu" kimi daha çox xarici ziyarətçiləri cəlb edəcək çoxsaylı unikal təbii və mədəni yerlərə malikdir.

2018-ci ilin sentyabrında Qırğız Respublikası Üçüncü Dünya Köçəri oyunlarını uğurla keçirdi və bigə kampaniya dünya KİV-lərinin diqqətini bu oyunlara çəkdi ki, bu da Qırğızıstan Respublikasının beynəlxalq arenada daha da tanıtmış oldu.

2019-cu ildə turist sayı 1,8 milyona yüksəlmişdir və keçmiş Sovet İttifaqından gələn qonaqlar Qırğızıstan Respublikasına səyahət edən turistlərin böyük əksəriyyətini təşkil etməyə davam edir. Hesablamalara görə, turistlərin təxminən 70% -i Qazaxıstandan, 13% -i Rusiyadan, təxminən 2% -i Avropa ölkələrindən gəlir. Turizm sektorunda təxminən 40.000 nəfər və ya Qırğızıstan Respublikasının ümumi rəsmi məşğulluğunun təxminən 2% -i çalışır.

## Türkiyə

Türkiyə sahil turizmi, sağlamlıq və termal turizm, qış idman, dırmanma və, macəra turizmi, yayla turizmi və ekoturizm, konfrans və sərgi turizmi, kruiz və yaxta turizmi, qolf turizmi və s.kimi alternativ turizm kateqoriyasına daxil olan müxtəlif turizm növləri üçün bir neçə unikal imkanlara malikdir. Buna görə də, Türkiyənin 2023 - cü il turizm strategiyası və 2023-cü il üçün fəaliyyət planı, ümumilikdə, təbii, mədəni, tarixi və coğrafi aktivlərin daha səmərəli istifadəsinə və Türkiyənin turizm biznesində payının artırılmasına yönəlib.

Türkiyənin 2023-cü il turizm strategiyası şəhər səviyyəsində planlaşdırma, investisiya, təşkilat, daxili turizm, tədqiqat və inkişaf, xidmətlərin, nəqliyyatın və infrastrukturun möhkəmləndirilməsi, irəliləmə və marketinq, təhsil, brendinq, turizm məhsullarının şaxələndirilməsi, mövcud turizm zonalarının bərpası və istiqamətlərin yaxşılaşdırılması sahəsində müxtəlif uzunmüddətli strategiyalar təklif edir. Strategiya iqtisadi artımı dəstəkləyən planlaşdırma yanaşmasından istifadə edir, fiziki cəhətdən tətbiq olunan və sosialyönümlü və davamlı turizm prinsipini əks etdirir.

Turizm fəaliyyətinin istər milli, istərsə də regional səviyyədə inkişafının təmin edilməsi yalnız prioritet regionlar və rayonlar müəyyən edildikdə və bu sahələrə aid infrastruktur layihələrinin lazımi dəstləri müəyyən edildikdə əldə edilə biləcək məqsəd müvafiq subyektlərin və təşkilatların investisiya cədvəllərinə daxil edilmişdir.

TÜRKPA üzv ölkələri gözlənilən dəyişiklikləri reallaşdırmaq üçün Türkiyə üçün turizm sahəsində mühüm hədəf auditoriyasını təşkil edirlər. Türkiyə və digər türkdilli dövlətlər tarixin dərinliklərindən gələn sarsılmaz tellərlə, ümumi mədəniyyətlə və oxşar istehlak vərdişləri ilə bağlıdır. TÜRKPA-ya üzv olan ölkələrdən Türkiyəyə gələn turistlərin sayı, görünür, istənilən səviyyədə deyil. Şübhəsiz ki, Türkiyənin təbii gözəlliyi, turizmin və xidmət sahəsinin yüksək inkişaf səviyyəsi, eləcə də institusional quruculuq prosesində əldə edilmiş təcrübə bu artıma böyük töhfə verir.

Türkiyə Statistika İnstitutunun topladığı statistik məlumatlara görə, Türkiyəyə türkdilli ölkələrdən gələn turistlərin sayı, ümumi sayın 2,9% - ni təşkil edir. Ölkələr ayrı-ayrılıqda nəzərdən keçirildiyi zaman aydın olur ki, Qazaxıstandan gələn turistlərin sayı (402,384) digər üç Türkdilli dövlətdən yüksəkdir. Qırğızıstandan Türkiyəyə gedən vətəndaşların sayı 2017-ci ildə ilk dəfə olaraq 100 mini ötüb. Bu artımda Qırğızıstandan olan və dənizkənarı otellərə işləməyə gedən işçilər də mühüm rol oynamışlar. 2017-ci ilə nisbətən,  2018-ci ildə bu rəqəm 9,55% artaraq 114 926 nəfərə çatıb.

## NƏTİCƏ

Ortaq tarixi və mədəni köklərə malik TÜRKPA üzv ölkələri turizm sahəsində böyük potensiala malikdir. Lakin üzv ölkələr arasında turizm sahəsində  fəaliyyət

istənilən səviyyədə deyil. Bundan başqa, Covid-19 pandemiyası turizmə də böyük zərbə vurmuşdur.

Covid-19 pandemiyası dövründə türkdilli ölkələr arasında turizmin inkişafı məqsədilə artıq mövcud olan imkanlar həm ikitərəfli, həm də çoxtərəfli səviyyədə gücləndirilməlidir.

Üzv dövlətlər ortaq strategiyanı və türkdilli dövlətlərdə turizmin inkişafı üzrə fəaliyyət planını formalaşdıraraq turizmdən əldə edilə biləcək faydanı artıra bilərlər.